# Zəfər tarixinin xronikası



## 19 oktyabr 2020-ci il

Həmin gün:

– Prezident İlham Əliyev tvitterdəki hesabında paylaşım edib. Paylaşımda deyilir: “Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!”.

– Ali Baş Komandan, Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik edib və təbriklərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırıb;

– Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib;

– Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı qəbulda deyib: “Əgər Türkiyə açıq mövqe göstərməsəydi, bu gün başqa qüvvələr bu işlərə qarışa bilərdi”;

– Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ADA Universitetində diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə və mülki əhalisinə qarşı hücumları ilə bağlı hər bir faktın Baş Prokurorluq tərəfindən sənədləşdirildiyini, cinayət işlərinin başlandığını bildirib;

– Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov ADA Universitetində keçirilən brifinqdə Ermənistanın son iki humanitar atəşkəs razılaşmasını pozaraq respublikamızın mülki əhalisini, Gəncə, Mingəçevir və digər şəhərlərini raket atəşinə tutduğunu, Gəncədə faciə yaşandığını diqqətə çatdırıb;

– Baş Nazir Əli Əsədov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentopun rəhbərlik etdiyi, Türkiyə parlamentində təmsil olunan dörd partiyanın təmsilçilərinin daxil olduğu nümayəndə heyəti ilə görüşüb;

– Xarici İşlər naziri Ceyhun Bayramov Fransanın Xarici İşlər naziri Jan-İv Lö Drian arasında telefon danışığı zamanı bölgədə mövcud olan vəziyyət barədə danışıb. Ceyhun Bayramov rəsmən atəşkəs elan olunmasından sonra Ermənistan silahlı qüvvələri tərəfindən ikinci dəfə humanitar atəşkəsin pozulduğu barədə Fransa Xarici İşlər nazirinə məlumat verib;

– Xarici İşlər naziri Ceyhun Bayramov Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli ilə telefon danışığında qarşı tərəfi Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəsin pozulması barədə məlumatlandırıb;

***

Müdafiə Nazirliyi cəbhədə son vəziyyətlə bağlı məlumat yayıb:

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Eyni zamanda məlum olub ki, bir çox istiqamətlərdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

İşğal olunmuş ərazilərdə döyüş mövqelərindən qaçan hərbi vəzifəlilərin, könüllülərin, həmçinin Ermənistana köç etmək istəyən 55 yaşına qədər kişilərin qarşısını almaq məqsədilə yollarda komendant postları qurulub. Bu məntəqələrdə avtomobillərin yoxlanılması zamanı çoxlu sayda silah-sursat, hərbi geyim və ləvazimat, eləcə də yataq dəstlərinin döyüş bölgəsindən çıxarılaraq Ermənistana daşındığı məlum olub.

***

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, oktyabrın 19-da səhər saatlarından başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Tərtər rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması nəticəsində Ələsgərli kənd sakini 1962-ci il təvəllüdlü Səlimov Niyaz Hüseynalı oğlu yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib. Onun yaşadığı evə isə ciddi ziyan dəyib.

***

Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad olunması vətəndaşlarımız, eləcə də xaricdə yaşayan soydaşlarımız tərəfindən böyük sevinclə qarşılanır. Onlar Prezident, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları çoxsaylı məktublarda dövlətimizin başçısına bu günlərdə xalqımıza yaşatdığı hədsiz fərəh və qürur hisslərinə görə minnətdarlıqlarını ifadə edirlər.

*“Xalq qəzeti”*